# Milli Qurtuluş Günü qeyd olundu

Heydər Əliyev Mərkəzində "Milli Qurtuluş Günü"nə həsr olunmuş tədbir keçirildi. Tədbirdə ümumtəhsil məktəblərinin müəllimləri iştirak edirdi.

Tədbiri rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova açdı.



Sonra Tikanlı kənd tam orta məktəbinin müəllimi İlham Ədilov "15 iyun Milli Qurtuluş Günüdür" mövzusunda məruzə etdi. Məruzə ətrafında rayon təhsil şöbəsinin metodisti Tərbiyə İsayeva, şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Gülər Müzəffərova və digərləri çıxış etdi.

Sonda tədbir şəhər 5 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatdı.

**"Qəbələ"**

# Silsilə tədbirlər keçirilib

Rayon tarix-diyarşünaslıq muzeyində 15 İyun Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilmişdir. Çoxsaylı məktəblinin cəlb olunduğu tədbirlərdə «Heydər Əliyev və Azərbaycan» mövzusunda məruzələr dinlənilmişdir. Eyni zamanda muzeyin ekspozisiyasında mövzu ilə əlaqədar xüsusi guşə açılmışdır. Güşədə Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimyyətə gəlməsi və Azərbaycanı məhv olma təhlükəsindən xilas etməsi barədə tarixi materiallar, kitablar sərgilənmişdir. Kitabları muzeydə mütaliə etmək üçün tamaşaçılara şərait yaradılmışdır.

**✍ İlhamə SEYİDOVA, muzeyin əməkdaşı.**

# 26 İyun Silahlı Qüvvələr Günüdür

1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük işlər görmüşdür. Bu işlərdən biri də ordu quruculuğu sahəsində görülən tədbirlərdir. Dövlətin əsas atributlarından və varlığının qarantı olan ordu quruculuğu çox çətin və mürəkkəb bir prosesdir. Ordusuz dövlət yaşaya bilməz. O vaxt isə vəziyyət olduqca gərgin idi. Gənc Azərbaycan Demokratik Respublikasını parçalamaq, onun ərazisini öz torpaqlarına qatmaq üçün qonşu dövlətlər açıqdan-açığa öz məkrli fikirlərini bildirirdilər.

Azərbaycan Demokratik Respublikasında ordu quruculuğunu çətinləşdirən məqamlardan ən əsas o idi ki, milli zabit kadrları çatışmırdı.Çünki çar Rusiyasında azərbaycanlı zabit kadrlarının yetişməsinə müstəsna hallarda imkan verirdilər. Azərbaycanlılar orduya çağırılmırdı. Bir sözlə, imperiya azərbaycanlılara silah etibar etmirdi. Digər tərəfdən azərbaycan kəndlisi başdan-başa savadsızlardan ibarət idi. Bütün bu çətinliklərə baxmayaraq ADR hökuməti ordu quruculuğunu həyata keçirmək üçün böyük tədbirlər gördü.

Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi birləşmə - Əlahiddə Korpusun yaradılmasına başlanıldı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət və orduya çağırış haqqında fərman verildi. Az bir vaxt ərzində Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olundu. Yeni yaradılmış ordu Qarabağda erməni quldurlarına qarşı uğurlu əməliyyatlar keçirdi.

Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün artıq 19-cu ildir ki, ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilir. Bu günün bayram kimi tarixləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevdir.

Ulu öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Ümummilli lider Heydər Əliyev bu fərmanı ilə tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atdı.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə silahlı qüvvələrin təchizatı və təminatı üçün ayrılan büdcə vəsaiti ildən-ilə artırılır, ordumuzun maddi-texniki bazası gücləndirilir, ordunun döyüş qabiliyyəti daha da yüksəlir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı mühüm addımlar atılır.

Bu gün Azərbaycan Ordusu regionun ən yaxşı təchiz olunmuş, yüksək döyüş qabiliyyətinə malik ordusudur. Azərbaycan əsgəri 2016-cı ilin aprel döyüşlərində düşmənlə müqayisədə bütün sahələr üzrə çox üstün olduğunu sübut etdi. Fəxrlə deyə bilərik ki, bu gün yüksək döyüş hazırlığı olan milli ordumuz düşmən tapdağında olan torpaqlarımızı qısa müddətdə azad etməyə qadirdir.

**✍ Qüdrət SƏMƏDOV, "Qəbələ"**

# Maraqlı ekskursiya

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin bir qrup şagirdi dərs ilinin son günlərində Qəbələ şəhərinə ekskursiyaya gəlmişdir. Əntiqə Hacıyevanın rəhbəri olduğu IV «a», Xatirə Cəfərovanın rəhbəri olduğu III «a» və Sevinc Dadaşovanın rəhbəri olduğu II «a» siniflərinin şagirdləri müəllimləri ilə birlikdə rayon tarix diyarşunaslıq muzeyində, Heydər Əliyev Mərkəzində və «Qəbələnd» Əyləncə Mərkəzində olmuşlar. Onlar muzey və mərkəzlərdə eksponatlara baxmış, əyləncə mərkəzində attraksionlardan istifadə etmişlər.

Ekskursiya məktəblilərin xatirində silinməz izlər buraxmışdır.

**✍ Nazlı ƏDİLLİ, məktəbin şagirdi.**

# Rusiya Federasiyası Ədliyyə Nazirliyinin əməkdaşları Qəbələdə

Rusiya Federasiyası Ədliyyə Nazirliyinin bir qrup əməkdaşı rayonumuzda səfərdə olmuşdur.

Səfər zamanı onlar Qəbələ Regional "ASAN xidmət" Mərkəzinə gəlmiş, mərkəzdə əhaliyə göstərilən xidmət işləri ilə tanış olmuşlar. Nümayəndə heyətinə "ASAN xidmət" Mərkəzinin iş prinsipi, burada həyata keçirilən xidmət növləri və maraqlı layihələr haqqında məlumat verilmişdir. Onlar "ASAN xidmət" Mərkəzində fəaliyyət göstərən əməkdaşların, eləcə də könüllülərin fəaliyyətini yaxından izləmiş, exit poll rəy sorğusu, elektron şikayət köşkü və "ASAN ödəniş" terminallarının fəaliyyəti ilə maraqlanmışlar.



**✍ Səhrab UMUYEV, «Qəbələ»**

# Rəsm kursları təşkil olunmuşdur

*Qəbələ regIonal "ASAN xidmət" Mərkəzində gənclərin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək məqsədi ilə rəsm kursları açılmışdır. Hər həftənin şənbə günü saat $15^{00}$-da keçirilən məşğələlər ödənişsiz olaraq mərkəzin inzibati binasında aparılır.*




*Kursun ilk günündə gənclərə təsviri sənətin müxtəlif janrları haqqında məlumat verilmiş və onların yaradıcılıq qabiliyyətləri yoxlanılmışdır. Başlanğıc olaraq həvəskarlara natürmortların eskiz şəklində çəkilməsi izah olunmuşdur.*

*Rəsm kurslarının keçirilməsində məqsəd təsviri incəsənət sahəsində qabiliyyəti olan istedadlı gənclərin nəzəri biliklərini və peşəkarlığını inkişaf etdirmək, onların yaradıcılıq qabiliyyətlərini istiqamətləndirməkdir.*

*"Qəbələ"*

# Şüarımız nümunəvi olmaqdır

Təqribən bir ay əvvəl Zarağan kəndinin ictimai-mədəni həyatında əlamətdar hadisə baş vermişdir. Rayon icra hakimiyyəti rəhbərliyinin yaxından köməyi ilə kənd uşaq bağçası yeni binaya köçürülmüşdür.

Körpələr, onların valideynləri və bağçanın pedaqoji kollektivi bu qayğını dərin minnətdarlıq hissi ilə qarşılamışlar. İki mərtəbəli, 40 yerlik, yaraşıqlı, hər cür şəraiti olan tərbiyə müəssisəsinin işi canlanmış, sanki burada həyat yenidən qurulmuşdur.

Az vaxt ərzində bağçaya müraciətlər artmış, valideyinlər həvəslə uşaqlarını buraya gətirməyə başlamışlar. Azyaşlıların qidalanması, tərbiyəsi, təlimi və normal istirahəti üçün mövcud olan şərait hamını, xüsusilə valideynləri daha çox razı salmışdır. İndi Zarağan kənd uşaq bağçası müasirliyi ilə rayonun aparıcı məktəbəqədər tərbiyə müəssisələrinin sırasındadır.

Ölkəmizdə aparılan təhsil islahatlarının ana xəttini uşaqlar, uşaq bağçalarının inkişafı, məktəbəqədər tərbiyənin prioritetliyi təşkil edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan uşaq-gənclər siyasətini bu gün onun layiqli davamçısı İlham Əliyev uğurla davam etdirir. Körpələrin ən böyük hamisi olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da bu sahədəki əvəzsiz xidmətlərini biz məktəbəqədər tərbiyə müəssisəsinin kollektivi görür və üzərimizə düşən məsuliyyəti dərk edirik. İnsanlar övladlarını bizə etibar edirlər. Onların dünyaya baxışı, həyat mövqeyi məhz burada formalaşır.

Təhsil, tərbiyə, qidalanma və mənalı istirahət işimizin əsasını təşkil etsə də biz körpələrin ümumi dünyagörüşünü zənginləşdirməyi, inkişaf etdirməyi də diqqət mərkəzində saxlayırıq. Hazırda bu istiqamətdə geniş tədbirlər planı hazırlamışıq. Bu bizim cəmiyyət qarşısında peşə borcumuz kimi az da olsa qiymətləndiriləcəksə xidmətimizdən yalnız iftixar və qurur duyacağıq.

**✍ Dunay SƏDDİNOVA, bağçanın müdiri.**